# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 85** **Bakı şəhəri, 7 mart 2020-ci il**

***"Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 372; 2011, № 3, maddə 235; 2013, № 5, maddə 567; 2014, № 5, maddə 571; 2016, № 6, maddə 1203, № 11, maddə 1967; 2017, № 6, maddə 1222; 2018, № 11, maddə 2428, № 12 (II kitab), maddə 2738) ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.5-ci bəndin səkkizinci abzasında "(ixtisaslaşmış Elmi Şuranın)" sözləri "(ixtisaslaşdırılmış şuranın)" sözləri ilə əvəz edilsin.
2. Qaydanın 3-6 nömrəli əlavələrində mətn üzrə "ELMİ ŞURANIN" sözləri "ŞURANIN" sözü ilə əvəz edilsin.
3. Qaydanın 3 və 4 nömrəli əlavələrinə mətn üzrə "doktoranturada təhsili davam etdirmək" sözlərindən sonra "(magistr dissertasiyasını müdafiə edənlərə münasibətdə)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

Xalq qəzeti 2020.- 12 mart.- S.5.